BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№2 *Sosial-siyasi elmlər seriyası* 2009

# İCTİMAİ TƏHLÜKƏLİ NƏTİCƏ VƏ ONUN CİNAYƏT MƏSULİYYƏTİNİN DİFERENSİASİYASINDA ROLU

**A.Ə.İSKƏNDƏROV**
***AMEA-nın Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu***
***a.iskandarov@mail.ru***

Cinayət hüququnda məsuliyyətin diferensiasiyası mübahisə doğuran məsələlərdəndir. Hüquq ədəbiyyatında məsuliyyətin diferensiasiyası ilə bağlı iki əsas fikir yayılmışdır. Əslində belə mövqe məsuliyyətin diferensiasiyasının əsasları ilə bağlıdır. Birinci mövqe, məsuliyyətin diferensiasiyasının cinayətin xarakterinə və ictimai təhlükəlilik dərəcəsinə görə aparılması ilə bağlıdır (1, 38). Digər mövqeni müəlliflərdən əsasən T.V.Korobkov söyləyir: onun fikrincə, cinayətin təhlükəlilik dərəcəsi ilə yanaşı məsuliyyətin diferensiasiyası cinayət törədənin şəxsiyyətinin təhlükəliliyinə görə də aparılmalıdır (2, 6).

Müəllif tələb edir ki, cinayətkarın şəxsiyyəti sosial tip kimi öyrənilməli və belə tiplər cinayət qanununda məsuliyyətin diferensiasiysının əsası kimi istifadə edilməlidir.

Müəllifin qeyd edilən mövqeyi xeyli maraq doğursa da, lakin cinayəti törədənin şəxsiyyətinin tipologiyası dəqiq kriteriyaya söykənmədiyindən, ondan məsuliyyətin diferensiasiyasının vasitəsi kimi istifadə edilə bilməz.

Cinayət hüquq ədəbiyyatında mübahisə doğuran məsələlərdən biri də kriminallaşdırma ilə məsuliyyətin diferensiasiyası arasında olan əlaqə məsələsidir. Kriminallaşdırma cinayət məsuliyyətinin əsasları ilə bağlıdır (3, 49). Kriminallaşdırma məsuliyyətin diferensiasiyasından fərqli olaraq daha geniş miqyasda prinsip və amillərlə, şərtlərlə bağlıdır. Kriminallaşdırma, ilk növbədə, sosial proseslərin neqativ, sabit təkrar olunan tərəfləri ilə bağlıdır. Bununla belə, əməllərin kriminallaşdırılması fəaliyyəti ilə bağlı, həm də cinayət kimi müəyyən edilən əməllərə görə uyğun sanksiya müəyyən edilir, cinayətlərin təhlükəlilik dərəcəsinə aydınlıq gətirilir, bu zəmində cinayətlərin kateqoriyalara bölgüsü aparılır. Buna görə də, biz əməllərin kriminallaşdırılması fəaliyyətinin həm də qismən məsuliyyətin diferensiasiyası fəaliyyəti ilə bağlı olduğunu qeyd edirik. İstər əməllərin kriminallaşdırılmasının, istərsə də məsuliyyətin diferensiasiyasının subyektləri qanunverici orqandır (4, 14).

Məsuliyyətin diferensiasiyasında çoxsaylı meyar və əlamətlərdən istifadə edilir. Belə əlamətlər çoxsaylı olsa da, onlar cinayətin obyekti, obyektiv və subyektiv cəhətləri ilə bağlı olur.

Biz bunların içərisində ancaq cinayətlərin nəticəsinin məsuliyyətin diferensiasiyasında yerini və rolunu araşdıracağıq.

İctimai təhlükəli nəticə təkcə məsuliyyətin diferensiasiyasında deyil, həm də əməlin kriminallaşdırılmasında mühüm rol oynayır. Təsadüfi deyildir ki, zaman-zaman cinayət qanunvericiliyinin inkişafında əməllərin kriminallaşdırılmasında zərərli nəticəyə üstünlük verilmişdir.

Doğrudur, Azərbaycan Respublikasının 1922-ci və 1927–ci illər Cinayət Məcəllələrində əməllərin kriminallaşdırılması xeyli siyasi ideologiyanın təsiri altında olmuşdur. Həmin Məcəllələrdə nəticə ilə əlaqələndirilməyən cinayət tərkibləri 60%-dən artıq olmuşdur. 1925-ci ildən sonrakı dövrdə SSRİ- də siyasi rejim totalitarizmə doğru səmtlənmiş, insanların yayınan hərəkətlərinin kifayət qədər əsas olmadan kriminallaşdırılmasına üstünlük verilmişdir; cinayət qanunvericiliyindən əhalini vahiməyə salma vasitəsi kimi istifadə edilmişdir.

Təsadüfi deyildir ki, Azərbaycan Respublikasının 1927-ci il Cinayət Məcəlləsində 1922-ci il Cinayət Məcəlləsi ilə müqayisədə formal quruluşlu tərkiblərin sayı iki dəfə yüksək olmuşdur. Digər tərəfdən 1927-ci il Cinayət Məcəlləsində həm də Analogiya İnstitutunun mövcudluğu əməlin kriminallığını faktiki obyektiv meyarlar əsasında müəyyən etməyə imkan vermirdi. Qanun əsasında deyil, siyasi rejimin səlahiyyətli şəxslərinin mülahizəsinə əsasən insanların potensial təhlükəli olmasına dair nəticə çıxarılırdı və bu zəmində cinayət məsuliyyəti həll olunurdu. Belə vəziyyət 1960-cı illərə qədər davam etmişdi. Ancaq respublikanın 1960-cı il Cinayət Məcəlləsinin qəbulundan sonra tədricən əməllərin kriminallaşdırılmasına dair elmi nəzəriyyə işlənib hazırlandı. 1960-cı ildə qəbul edilən Cinayət Məcəlləsində Analogiya İnstitutundan imtina edilmiş, tədricən qanunçuluq rejimi bərqərar olunmuşdur.

Azərbaycan Respublikasının ilk Cinayət Məcəlləsinin (1922 və 1927), eləcə də 1960 və hazırda qüvvədə olan 1999-cu il Cinayət Məcəllələrinin müqayisəli tədqiqi göstərir ki, getdikcə maddi quruluşlu tərkiblər yaratmaq yolu ilə qanunvericiliyin inkişafına üstünlük verilir. Göstəricilərə diqqət yetirək:

| Cinayət məcəllələri | Cinayət tərkiblərinin sadə sayı | | Formal tərkiblər | | Maddi tərkiblər | |
|---|---|---|---|---|---|---|
| | Rəqəmlə | Faizlə | Rəqəmlə | Faizlə | Rəqəm lə | Faizlə |
| 1922-ci il | 179 | 100% | 128 | 71,5% | 51 | 28,5% |
| 1927-ci il | 232 | 100% | 178 | 76,7% | 54 | 23,3% |
| 1960-cı il | 254 | 100% | 166 | 65,4% | 88 | 34,6% |
| 1999-cu il | 322 | 100% | 125 | 38,8% | 197 | 61,2% |

Bu göstərici qüvvədə olan cinayət qanunvericiliyində insanlara, cəmiyyətə yetirilən ziyana görə məsuliyyətin həllinin əsas istiqamət kimi müəyyən edildiyini göstərir.

Qüvvədə olan cinayət qanunvericiliyində məsuliyyətin təhlükəli nəticə ilə əlaqələndirilməsinə ədalətlilik prinsipi ilə və ictimai hüquqi şüurla haqq qazandırılır. Lakin cinayət qanunvericiliyində ictimai təhlükəli nəticədən ancaq əməllərin kriminallaşdırılmasında vasitə kimi deyil, həm də məsuliyyətin diferensiasiyasının ölçülərindən biri kimi istifadə edilir.

1999-cu il Cinayət Məcəlləsinin Xüsusi hissəsinin fəsillərində nəzərdə tutulan normaların xeylisinə ictimai təhlükəli nəticə əsas tərkiblərə, xüsusən məsuliyyəti ağırlaşdıran halı olan tərkiblərə daxil edilmişdir. Fəsillər üzrə ictimai təhlükəli nəticəni nəzərdə tutan normaların nisbəti müxtəlifdir (5, 20-21). CM-in şəxsiyyət əleyhinə olan cinayətlər fəslində məsuliyyət müəyyən edən 40 normada ictimai-təhlükəli nəticədən məsuliyyətin diferensiasiyasında istifadə edilmişdir. Həyat əleyhinə edilən cinayətlərdə məsuliyyətin diferensiasiyasında «həyatdan məhrum etmə» növündə ictimai təhlükəli nəticə həm əsas

tərкiblərdə (maddə 120.1), həm də məsuliyyəti ağırlaşdıran halı olan tərкiblər üzrə məsuliyyətin diferensiasiyasında istifadə edilmişdir. CM-in 120.2-120.2.12-ci maddələrində «ölümlə» bağlı olan nəticə ilə yanaşı digər ağırlaşdırıcı hallar da tərкiblərə cəzanı ağırlaşdıran hal кimi daxil edilmişdir.

Laкin cəzanı ağırlaşdıran və tərкib əlaməti кimi müəyyən edilən hallar içərisində cinayətin obyeкtiv əlamətləri ilə bağlı ictimai təhlüкəli nəticə cinayətin təhlüкəliliк dərəcəsini müəyyən edən başlıca meyarlardandır (6, 89).

Fiкrimizcə, cinayət hüquq yaradıcılığında məsuliyyətin diferensiasiyasında cinayətin nəticəsinə кifayət qədər əhəmiyyət verilməmişdir. Hazırda qüvvədə olan cinayət qanunvericiliyində məsuliyyəti ağırlaşdıran halı olan tərкiblərin qurulmasında bu hallara eyni mövqedən qiymət verilir.

Normalarda təsbit edilən cəza sanкsiyalarına diqqət yetirdiкdə belə yəqinliк bir daha hasil olur.

Zənn ediriк, bundan sonraкı dövrdə məsuliyyətin diferensiasiyasında, məsuliyyəti ağırlaşdıran halı olan tərкiblərin qurulmasında istifadə edilən hallara, onların cinayətlərin təhlüкəliliк dərəcəsinə təsirindən asılı olaraq fərqli seçim olmalıdır.

Cinayət Məcəlləsinin həyat əleyhinə edilən cinayətlərə görə məsuliyyət müəyyən edən 120.2-120.2.12-ci maddəsində sadalanan hallar məsuliyyəti ağırlaşdırır və bu əsasda da məsuliyyətin diferensiasiyası verilir. Bu maddədə tərкiblərin qurulmasında məsuliyyəti ağırlaşdıran 12 haldan istifadə edilmişdir. Bunların içərisində «iкi və ya daha çox şəxsi öldürmə», «təкrar qəsdən adam öldürmə», «hamilə vəziyyətində olan qadını öldürmə» və s. bu кimi hallar cinayətin nəticəsi ilə - obyeкtə yetirilən ziyanla bağlıdır. Məsuliyyəti ağırlaşdıran halları olan tərкiblərin qurulmasında istifadə edilən digər hallar, nəticə ilə bağlı olan hallardan nisbətən az təhlüкəlidir. Laкin qüvvədə olan cinayət qanunvericiliyində onlar məsuliyyəti ağırlaşdıran digər hallardan fərqləndirilmir. Biz məsuliyyətin bu qaydada diferensiasiyasını məqbul saymırıq. Zənn ediriк, Cinayət Məcəlləsinin 120-ci maddəsində məsuliyyəti xüsusilə ağırlaşdıran halı olan tərкiblər formulə etməкlə qəsdən adam öldürmənin nəticə ilə bağlı halları zəminində məsuliyyətin daha adeкvat diferensiasiyasına nail oluna bilərdi (7, 152).

Qeyd edilən mülahizəyə söyкənərəк biz Cinayət Məcəlləsinin 120-ci maddəsinin üç hissədən ibarət quruluşda formulə edilməsini təкlif ediriк. Sağlamlıq əleyhinə törədilən cinayətlərin diferensiasiyasında ictimai təhlüкəli nəticə ilə əlaqədə məsuliyyəti ağırlaşdıran halı olan tərкiblərin formulə edilməsində və məsuliyyətin adeкvat diferensiasiyasında qanunvericiliк ardıcıl olmamışdır. Belə кi, qüvvədə olan qanuna əsasən qəsdən sağlamlığa ağır zərər vurma, iкi və ya daha artıq şəxsə, habelə təкrar ağır zərər yetirməyə görə məsuliyyəti ağırlaşdıran halı olan tərкiblər müəyyən etməкlə məsuliyyətin diferensiasiyası aparıldığı halda, Cinayət Məcəlləsinin 123, 127, 128, 129, 130 və 131-ci maddələrində nəzərdə tutulan cinayətlər üzrə qeyd edilən ictimai təhlüкəli nəticə ilə bağlı məsuliyyəti ağırlaşdıran halı olan tərкiblər formulə edilməmiş, beləliкlə, qeyd edilən cinayətlərə görə cəzanı ağırlaşdıran hallarda məsuliyyətin diferensiasiyası aparılmamışdır. Zənn ediriк кi, qanundaкı belə boşluqlar gələcəкdə aradan qaldırılacaqdır.

Qanunun Xüsusi hissəsinin xeyli normalarının dispozisiyasında «xeyli miqdar ziyan» tərкibə daxil edilmiş, qanunverici ondan

məsuliyyətin diferensiasiyasında vasitə kimi istifadə etmişdir. Respublikanın qüvvədə olan Cinayət Məcəlləsinin 177.2.4; 178.2.4; 179.2.4; 180.2.5; 181.2.4; 182.2.4; 184.2.3; 185.2.4; 186.1, 189.1-ci maddələrinin dispozisiyalarında cinayətin «nəticəsi» kimi müəyyən edilən «xeyli miqdar» əlamətindən asılı olaraq, bu cinayətlərin ağırlığına görə fərqli növləri təsbit edilmişdir. Məcəllənin 177-ci maddəsinin 2-ci qeydinə görə «xeyli miqdar» anlayışı qanunvericiliklə müəyyən edilmiş 1000 manatdan 7000 manata qədər yetirilən ziyanı nəzərdə tutur. Bundan əlavə, qanunda ziyanın miqdarından asılı olaraq qanunverici orqan məsuliyyətin daha fərqli diferensiasiyasını verir. Məsələn, mülkiyyət münasibətinə yetirilən ziyan «küllü miqdar» təşkil etdikdə Məcəllənin 177-187 və 189-cu maddələrinin cəzanı ağırlaşdıran daha ağır bəndləri ilə fərqli məsuliyyət yaranır.

Qüvvədə olan cinayət qanunvericiliyi obyektə yetirilən əmlak xarakterli zərəri ifadə edən «xeyli miqdar», «küllü miqdar» anlayışlarından eyni semantik mənanı ifadə edən anlayışlar kimi istifadə edir. Məsələn, Cinayət Məcəlləsinin 177-187, 189-cu maddələrinin dispozisiyalarında nəzərdə tutulan «xeyli miqdar», «küllü miqdar» anlayışlarının məzmunu ilə «İqtisadi fəaliyyət sahəsində olan cinayətlər» fəslində tərkiblərin diferensial şəkildə qurulmasında istifadə edilən «xeyli miqdar» və «küllü miqdar» anlayışları eyni miqyasda vurulan zərəri ifadə edirlər. Biz qanunun belə mövqeyini məqbul saymırıq. Ancaq eyni obyektə qəsd edən əməllərin yaratdığı nəticələr kateqoriyası eyni məzmunu ifadə etməlidir. Hər bir söz ancaq eyni anlama malik informasiya yükü daşımalıdır. Bu hal, köhnə qanundan fərqli olaraq qüvvədə olan Cinayət Məcəlləsinin müsbət cəhəti kimi qeyd edilməlidir. Təəssüf ki, qüvvədə olan Cinayət Məcəlləsi bu məsələdə ardıcıl mövqe tuta bilməmişdir. Belə ki, iqtisadi fəaliyyət sahəsində edilən cinayətlərin obyekti eyni olsa da, «vergi ödəmələrindən yayınma»ya görə məsuliyyət müəyyən edən 213-cü maddənin dispozisiyasında «xeyli miqdar» və «küllü miqdar» əlamətləri fərqli məzmuna malik anlayışlar kimi müəyyən edilmişdir.

Fikrimizcə, qəsdin obyektindən asılı olaraq «xeyli miqdar», «küllü miqdar», «xüsusilə küllü miqdar» anlayışlarının əhatə etdiyi miqdarlar da müxtəlif olmalıdır. Məsələn, qeyd edilən mülahizə baxımından mülkiyyət əleyhinə edilən cinayətlərə görə məsuliyyət müəyyən edən normaların dispozisiyalarında təsbit edilən «xeyli miqdar», «küllü miqdar» əlamətlərlərinin ifadə etdiyi ziyanın miqdarı ilə iqtisadi fəaliyyət sahəsində edilən cinayətlərə görə məsuliyyət müəyyən edən normalarda nəzərdə tutulan «xeyli miqdar», «küllü miqdar» əlamətlərlərinin ifadə etdiyi ziyanın miqdarı fərqli olmalıdır. Təəssüf ki, qüvvədə olan Cinayət Məcəlləsinin 177-ci maddəsinin, habelə 190-cı maddəsinin qeydində verilən «xeyli miqdar», «küllü miqdar» anlayışları eyni mənalı anlayışlar kimi izah edilir. İqtisadi fəaliyyət sahəsində edilən əməllərlə cinayət hüquqi mübarizə demək olar ki, öz əhəmiyyətini itirmişdir. Bu fəslə daxil olan əməllərə görə məsuliyyət müəyyən edən tərkiblərə elə konstruksiya verilmişdir ki, şəxsin əməli ilə vurulan ziyanın miqyası yalnız 1000 manatı aşdığı hallarda əməl cinayətə çevrilir. Bundan aşağı miqyasda vurulan ziyan ancaq inzibati məsuliyyətə səbəb olur. Bu səbəbdən də, respublikada iqtisadi fəaliyyət sahəsində edilən əməllər üzrə il ərzində 50-60 min şəxs inzibati məsuliyyətə alındığı halda, yalnız 5-6 adam cinayət məsuliyyətinə cəlb edilir.

Belə vəziyyətin yaranmasının başlıca səbəbi, cinayət tərkiblərinin formulə edilməsində yol verilən səhvlərlə bağlıdır. Bu fəsildə qanunverici «xeyli miqdar ziyana» səbəb olan əməli birbaşa sadə tərkib

kimi müəyyən edir. Bu, o deməkdir ki, törədilən əməllə vurulan ziyan 1000 manatı aşmırsa, əməl cinayətə çevrilmir. İqtisadi fəaliyyət sahəsində cinayət tərkiblərinə verilən konstruksiya, sahibkarlıq fəaliyyəti sahəsində törədilən əməllərə nadir hallarda cinayət əməli kimi baxmağa imkan verir. İnandırıcı olmaq üçün cinayət qanununa istinad edək. Cinayət Məcəlləsinin 194-cü maddəsində «Bilə-bilə cinayət yolu ilə əldə edilmiş əmlakı alma və ya satma» əməlinə görə cinayət məsuliyyəti müəyyən edilir. Bəlli olduğu kimi, Bakı şəhərində mənzildən edilən oğurluq geniş yayılmış əməllərdəndir. Qeyd edilən normanın tətbiqi mənzildən edilən oğurluqla mübarizədə mühüm rol olmalıdır. Lakin Məcəllənin 194-cü maddəsinin formuləsi cinayət yolu ilə əldə edilən əmlakı alma və ya satma əməllərinin bütün hallarını cinayət kimi qiymətləndirməyə imkan vermir. Bu da Məcəllənin 194.1-ci maddəsinin mətninə (yəni əsas tərkibə) «xeyli miqdar alma» və ya satma əlamətinin daxil edilməsilə əlaqədar olmuşdur. Sadə tərkibin əsas olmadan belə formulə edilməsi yalnız 1000 manat və daha artıq miqdarda cinayət yolu ilə əldə edilən əmlakı alma və ya satma hərəkətini cinayətə çevirir. Belə çıxır ki, cinayət yolu ilə əldə edilən əmlakı alma və ya satma 1000 manatdan artıq olduqda cinayət sayıla bilər. Əksər hallarda belə əməllər formal olaraq inzibati pozuntu ilə qiymətləndirilir. Belə vəziyyət iqtisadi fəaliyyət sahəsində baş verən əməllərlə cinayət hüquqi mübarizəni lüzumsuz edir. Zənn edirik, Respublikada azad bazar iqtisadiyyatının son 15-illik təcrübəsini nəzərə almaqla, Cinayət Məcəlləsinin «İqtisadi fəaliyyət sahəsində olan cinayətlər» fəslinə daxil olan cinayət tərkibləri yenidən formulə edilməli, sahibkarlıq sahəsində baş verən cinayət əməllərinin dairəsi dəqiq müəyyənləşdirilməlidir. Biz belə nəticə ilə bağlı tərkiblərin qurulmasında nə istəyirik? Əvvəla, qəsd obyektinin əhəmiyyətindən asılı olaraq eyni adda nəticəyə – ziyan və zərərə fərq qoyulmalıdır. Yəni obyektin mühümlüyü, qeyri-mühüm obyektə nisbətən yetirilən ziyan kəmiyyət baxımından fərqləndirilməlidir; ikinci, obyektə yetirilən ziyan, onun miqdarı dispozisiyada aydın ifadə edilməlidir.

Bəzi ölkələrin cinayət qanunvericiliyində obyektə yetirilən ziyanın iki meyar əsasında qiymətləndirilməsi qaydası müəyyən edilir. Məsələn, Rusiya Federasiyasının qüvvədə olan 1996-cı il Cinayət Məcəlləsinin son redaksiyasında oğurluq cinayətinə görə məsuliyyət müəyyən edən 158-ci maddənin 2-ci hissəsi ilə əməlin cinayət məsuliyyətinə səbəb olan oğurluq kimi qiymətləndirilməsi həm obyektə vurulan ziyanın keyfiyyət, həm də kəmiyyət tərəfi ilə müəyyən edilir. Həmin Məcəllənin 158-ci maddəsinin qeydinin 2-ci hissəsində göstərilir ki, vətəndaşın qəsd obyektinə vurduğu ziyan, zərərçəkənin əmlak vəziyyətindən asılı olaraq müəyyən edilir, lakin bu halda da vurulan ziyan 2500 manatdan az olmamalıdır.

Əvvəla, əmələ, baş verən iki nəticə əsasında, qiymət verilməsini biz məqbul saymırıq. Ümumiyyətlə, Azərbaycan Respublikasının ilk Cinayət Məcəllələrində, eləcə də 1960-cı il Cinayət Məcəlləsində obyektə yetirilən ziyan əksər hallarda qiymətləndirilən əlamətlər əsasında müəyyən edilirdi. Belə vəziyyət də qanunun məhkəmə mülahizəsi əsasında tətbiq edilməsinə gətirib çıxarardı. Bunu da məqbul saymaq olmazdı.

Rusiya Federasiyasının qüvvədə olan Cinayət Məcəlləsinin 158-ci maddəsinin qeydində verilən zərərçəkənin əmlak vəziyyətinin nəzərə alınması və eyni zamanda hər bir halda vurulan ziyanın 2500 manatdan az olmamalı göstərişi, zərərçəkənin əmlak vəziyyətinin nəzərə alınmasına dair göstərişin əhəmiyyətini heçə endirir.

Yuxarıda qeyd etdik ki, qəsdə məruz qalan obyektin mühümlüyündən asılı olaraq müxtəlif obyektlərə yetirilən ziyanın miqdarında fərqlər

müəyyən edilməlidir. Mülkiyyət əleyhinə edilən cinayətlərdə obyekt kimi çıxış edən mülkiyyət münasibətləri, iqtisadi fəaliyyəti ilə bağlı münasibətlərdən daha mühüm və daha dəyərli sayılır. Bu səbəbdən də mülkiyyətə yetirilən «xeyli miqdar», «küllü miqdar» ziyanın miqyası sahibkarlıq fəaliyyəti ilə bağlı münasibətlərə yetirilən «xeyli miqdar», habelə «küllü miqdar» ziyanın miqdarından az olmalıdır. Təəssüf ki, respublikanın qüvvədə olan Cinayət Məcəlləsində qeyd edilən məsələlər tamamilə yanlış həll edilmişdir. Öncə biz, Cinayət Məcəlləsinin 177-ci maddəsinin qeydində verilən ziyanın «xeyli miqdar» və «küllü miqdar» anlayışları ilə, Məcəllənin 190-cı maddəsinin (daha az əhəmiyyətli obyekt üzrə) qeydində verilən uyğun anlayışları müqayisə edək.

Müqayisə nəticəsində məlum olur ki, hər iki normada göstərilən anlayışlara eyni mənalı anlayış kimi izah verilmişdir.

Halbuki, qanunverici orqan bunlar arasında fərq qoymalı idi. Daha mühüm obyekt üçün eyni ad altında yetirilən ziyanın miqdarı nisbətən az hədlərlə müəyyən edilməli idi. Təəssüf ki, Məcəllədə belə fərq nəzərə alınmamışdır. Hələ bu azmış kimi, Cinayət Məcəlləsinin qaçaqmalçılığa görə məsuliyyət müəyyən edən 206-cı maddəsinin qeydində, habelə vergi ödəmələrindən yayınmaya görə məsuliyyət müəyyən edən 213-cü maddəsinin qeydində «xeyli miqdar» və «küllü miqdar» anlayışları üçün daha az miqdarda ziyan hədləri göstərilir. Buradan da, mülkiyyətlə müqayisədə, bu normaların qoruduğu münasibətlərin daha dəyərli olmasına dair yanlış təsəvvür yaranır.

Əlbəttə, qanunverici orqan qanunun Xüsusi hissəsində fəsillərin sistemini müəyyən edərkən onların qoruduqları ictimai münasibətin dəyərini və əhəmiyyətini nəzərə almışdır – fəsillər qorunan münasibətlərin mühümlüyünün azalması qaydasında düzülmüşdür. Bu prinsipial istiqamət cinayətin nəticələrinə görə dispozisiyalar qurularkən də nəzərə alınmalı idi.

Xeyli maraq doğuran cinayətlərdən biri də quldurluqdur. Quldurluqda əsas obyekt real ziyan çəkmək təhlükəsində qalan mülkiyyət münasibətləridir. Bununla belə, quldurluqda həyat və sağlamlığın təhlükəsizliyi real təhlükə altında qalır. Quldurluq cinayəti əmlakı ələ keçirmək məqsədi ilə hücuma məruz qalan şəxsin həyat və sağlamlığı üçün təhlükəli olan basqın həyata keçirilən andan bitmiş olur. Göründüyü kimi, burada əmlakın ələ keçirilməsi tələb olunmur. Lakin əmlakın ələ keçirilməsi də istisna edilmir. Qanunverici orqan qüvvədə olan cinayət qanunvericiliyi üzrə məsuliyyətin diferensiasiyasında cinayətin nəticəsindən əksər hallarda istifadə edir. Zənn edirik, quldurluq cinayəti üzrə cəzanı ağırlaşdıran tərkib əlamətləri sırasına, əmlakın ələ keçirilməsilə bağlı olan quldurluq hallarının daxil edilməsi ədalətli olardı.

Qüvvədə olan cinayət qanunvericiliyinin Xüsusi hissəsinin xeyli normalarında «zərər yetirmə», «ziyan vurma», «ağır nəticələrə səbəb olma» kimi nəzərdə tutulan əlamətlər qəsd obyektinə yetirilən ziyanı xarakterizə edir. Lakin qanunun özündə bu əlamətlərin izahı verilmir. Cinayət hüquq nəzəriyyəsində onlara «qiymətləndirilən» əlamətlər adı verilmişdir (8, 45).

Xüsusən, Cinayət Məcəlləsinin «Ekoloji cinayətlər» fəslinin suyun, torpağın, meşənin, havanın ekoloji durumuna qəsd edən əməllərə görə məsuliyyət müəyyən edən bir sıra normalarında cinayətin zərərli nəticələrini səciyyələndirən «əhəmiyyətli zərər vurma» (maddə 250), torpağın çirkləndirilməsilə bağlı «ətraf mühitə əhəmiyyətli ziyan vurulması» (maddə 254), Yerin təkinin qorunması və istifadəsi qaydalarını pozma ilə bağlı «əhəmiyyətli zərərə səbəb olduqda» (maddə

255), eləcə də həmin fəslin 258, 259, 261-ci maddələrində təsbit olunmuş «mühüm zərər vurma», «ağır nəticəyə səbəb olma» əlamətlərinin qanunda izahı verilmir.

Bundan əlavə, Cinayət Məcəlləsinin 33-cü fəslində vəzifə cinayətlərinə görə məsuliyyət müəyyən edən 308, 309-cu maddələrdə nəzərdə tutulan «mühüm zərər», «ağır nəticələr», 310-cu maddədə nəzərdə tutulan «mənafelərin əhəmiyyətli dərəcədə pozulması», habelə hərbi cinayətlərə görə məsuliyyət müəyyən edən normalarda «əhəmiyyətli zərər vurma» (maddə 341), «ağır nəticələrə səbəb olma» (maddə 341, 348) kimi əlamətlərin də qanunda izahı verilməmişdir. Əlbəttə, belə vəziyyət məhkəmə təcrübəsində qanunun tətbiqində xeyli çətinliklər yaradır.

Qeyd edilən əlamətlərə, işin konkret vəziyyətindən asılı olaraq məhkəmələrin mülahizəsinə əsasən qiymət verilir. Başqa sözlə, qanunun tətbiqi məhkəmələrin həmin nəticələr barəsində mülahizəsi ilə bağlı hüquq düşüncəsindən asılı olur.

Fikrimizcə, qeyd edilən nəticələrin qiymətləndirilən əlamətlərinin xeylisi formal miqdar kriteriyası ilə əvəz edilə bilər. Əgər bu məsələni qanunverici orqan müsbət həll edərsə, bu qanunun bir qaydada anlanılması və bir qaydada tətbiqi işinə əsaslı surətdə kömək edərdi.

Biz Cinayət Məcəlləsinin 192.1, 193.1, 194.1-198.1-ci maddələrində «əsas tərkibin» əlaməti kimi müəyyən edilən «xeyli miqdar»dan ibarət olan nəticə əlamətinin miqdar kriteriyasına dəyişiklik edilməsini təklif edirik: göstərilən maddələrdə «xeyli miqdar» anlayışı 500 manata qədər məbləğ kimi müəyyən olunsun. Bunun üçün Cinayət Məcəlləsinin 190-cı maddəsinin qeydinə təklif edilən dəyişiklik daxil edilsin.

Fikrimizcə, belə dəyişiklik Cinayət Məcəlləsinin «İqtisadi fəaliyyət sahəsində olan cinayətlər» fəslində nəzərdə tutulan normaların qeyd edilən sahədə cinayət hüquqi mübarizəyə xeyli müsbət təsir göstərəcəkdir.

Ekoloji cinayətlərə görə məsuliyyət müəyyən edən 248.1; 249; 250; 251; 252; 254 və s. normalarda havanın, suyun, torpağın, dənizin və s. obyektlərin çirkləndirilməsi heyvanların məhv olması, habelə insanların sağlamlığına ziyan vurulması ilə əlaqələndirilir. Biz zənn edirik, sadalanan tərkiblərin quruluşu müəyyən edilərkən qorunan təbii obyektlərin zərərli tullantılarla çirkləndirilməsinin mümkün yol verilən hədlərinin (nəticə) aşılmasının göstəricisi ilə kifayətlənmək lazım idi. Çünki çirkləndirmənin mümkün hədlərinin aşılması (nəticə) ətraf mühitin bitki və heyvanlar aləmi üçün, eləcə də insanlar üçün real ziyan yetirən mühit yaratmış olur.

## ƏDƏBİYYAT


1. Мельникова Ю.Б. Дифференциации ответственности и индивидуализация наказания. Краснодарск: 1989, 432 с.
2. Каробев П.В. Понятие дифференциации уголовной ответственности. Ярославль: 1995, 381 с.
3. Кругликов Л.Л., Василевский А.В. Дифференциация ответственности в уголовном праве. М.: Юристъ, 2003.
4. Лесниевски-Костарева Т.А. Дифференциация уголовной ответственности. М.: Норма, 2000, 216 с.
5. Номоконов В.А. Ответственность и ее перспективы в новом уголовном законодательстве (Правовая реформа и актуальные вопросы борьбы с приступностью. Владивосток: Наука, 1994, 189 с.
6. Мальцев В.В. О понятии пределов учета преступных последствий при конструктировании санкций уголовно-правовых норм и назначении наказания (Вопросы совершенствования уголовно-правовых мер борьбы с преступностью).

Свердловск: Наука, 1983, 308 с.
7. Мальцев В.В. Проблема уголовно-правовой оценки общественно опасных последствий. Саратов: Юрид. лит-ра, 1989, 188 с.
8. Кудрявцев В.Н. Общая теория квалификации преступлений. М.: Юристъ, 2001, 232 с.

## РОЛЬ ОБЩЕСТВЕННО ОПАСНОГО ПОСЛЕДСТВИЯ В ДИФФЕРЕНЦИАЦИИ УГОЛОВНОЙ ОТВЕТСТВЕННОСТИ

**А.А.ИСКЕНДЕРОВ**

**РЕЗЮМЕ**

Статья посвящена исследованию вопроса о роли общественно опасного последствия в дифференциации уголовной ответственности.

Дифференциация уголовной ответственности является прерогативой высшего законодательного органа. Роль общественного опасного последствия проявляется двояко в дифференциации уголовной ответственности. Во-первых, в случае включения общественно опасного последствия в качестве признака преступления в основные составы преступлений; во-вторых, в случае включения общественно опасного последствия в качестве признака преступления в составы преступления со смягчающими и отягчающими обстоятельствами.

## THE ROLE OF THE SOCIALLY DANGEROUS CONSEQUENCE IN THE DIFFERENTIATION OF THE CRIMINAL RESPONSIBILITY

**A.A.ISKENDEROV**

**SUMMARY**

The article deals with the investigation of the problem of socially dangerous consequences in the differentiation of the criminal responsibility.

The differentiation of the criminal responsibility is the prerogative of the legislative power.

The role of the socially dangerous consequence manifests in two ways in the differentiation of the criminal responsibility. The first one is, when a socially dangerous concequence is included as the indicium of the main constituent elements of the crimes; the second is when a socially dangerous consequence is included as the indicium of a crime to the constituent elements of the crimes with aggravating and mitigating circumstances.